Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Milli azlıq və etniklərin irsinin qorunmasında kütləvi tədbir və proqramların rolu...

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Mədəniyyətin, musiqinin dili olmur, o öz ətrafında dilindən, dinindən asılı olmayaraq hər kəsi toplaya bilir. Azərbaycan milli müxtəlifliyin əsrlərdir bərqərr olduğu bir ölkədir. Burada hər bir xalq öz mədəniyyətini, dilini, adət-ənənəsini, musiqisini və sair qoruyur, təbliğ edir.**

Respublikamızın müxtəlif guşələrində yaşayan milli-etnik azlıqların mədəniyyət günləri, teatr, musiqi festivalları keçirilir, özfəaliyyət qruplarının çıxışlarına geniş yer verilir, habelə onlar haqqında kütləvi teleradio proqramları hazırlanır, öz dillərində dinləyicilərə təqdim edilir. Bu gün Azərbaycan radiosunda ölkəmizdə yaşayan müxtəlif xalqların dilində proqramlar yayımlanır, İctimai Televiziyada azsaylı xalqların mənşəyi, tarixi, dili, mədəniyyəti, adət-ənənələri barədə verilişlər təqdim edilir. Azərbaycanda 20-dən çox millətin nümayəndəsi yaşayır, onların mədəni cəmiyyətləri fəaliyyət göstərir. Üç dini konfessiyanın - islam, xristian və iudaizmin nümayəndələri müxtəlif dövlət mərasimlərində, mədəni tədbirlərdə birgə iştirak edirlər.

Bu barədə araşdırma apararkən ən müxtəlif mənbələrə müraciət etdik və müraciət etdiyimiz mənbələrdən istifadə etdik.

**Telekanallarda, milli azlıqların etnik-mədəni həyatı, etnoqrafiyası barədə...**

Rəsmi məlumatlara görə, ölkə əhalisinin 8,4 faizini milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların nümayəndələri təşkil edir. Ekspertlər deyir ki, Azərbaycan hökuməti insan haqları, o cümlədən milli azlıqların müdafiəsi məqsədilə bir çox nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar əməkdaşlıq əlaqələrinə malikdir. Respublikamız insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur. Ölkəmizdə milli azlıqların məsələləri ilə məşğul olan 50-yədək qeyri-hökumət təşkilatı, mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və s. ictimai birliklər fəaliyyət göstərir. Azərbaycanda yaşayan etnik icmaların dilində 15-dən, rus dilində isə 30-dan çox qəzet və jurnal nəşr olunur. Telekanallarda, milli azlıqların etnikmədəni həyatı, etnoqrafiyası barədə müntəzəm materiallar hazırlanır. Milli azlıqların sıx yaşadığı 5 bölgədə isə yerli teleradio kanalları fəaliyyət göstərir. Eyni zamanda təlim yalnız rus dilində olan 19 və təlim yalnız gürcü dilində olan 6 orta ümumtəhsil, 345 beynəlmiləl orta məktəb fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) milli azlıqların dinini, mədəniyyətini, tarixini, etnoqrafiyasını öyrənən və tədqiq edən bölmə yaradılmışdır.

**"Azərbaycan - doğma diyar"**

Ekspertlər bu sahədə İctimai Televiziyanın rolunu xüsusi qeyd edir. İTV-də Milli Azlıqlar üçün Verilişlər Departamenti fəaliyyət göstərir. Azərbaycan dövlətinin demokratikliyinin və tolerantlığının nəticəsidir ki, ölkə teleməkanında ilk dəfə olaraq məhz İctimai Televiziyada Azərbaycanda yaşayan xalqların və etnik qrupların maddi mədəniyyət nümunələrini, milli məişətini geniş ictimaiyyətə çatdırmaqla televiziya uzun 13 əsrlər boyu ölkəmizdə yaşayan, hətta onun bir və bir neçə kəndində məskunlaşan, sayı bir neçə mindən artıq olmayan bu zəngin etnik müxtəlifliyi dünya ictimaiyyətinə çatdırır. Bundan başqa Departamentin təqdimatında "Körpü", "Bura vətəndir", "Danışan tarix" və s. verilişlər də tamaşaçılar tərəfindən maraqla izlənilir. Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, habelə xalqlar arasında qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə İctimai Televiziya ilə birgə "Azərbaycan - doğma diyar" devizi altında hər iki ildən bir Azsaylı Xalqların İncəsənəti festivalı keçirilir. Bu münasibətlə respublikanın müxtəlif bölgələrindən-Lənkəran, Astara, Masallı, Balakən, Zaqatala, Qax, Şəki, Quba, Qusar, Saatlı, İsmayıllı və Şabrandan azsaylı xalqların bədii kollektivləri Bakıya dəvət edilirlər. Ümumilikdə isə festivalın 500-ə yaxın iştirakçısı olur. Və İctimai Televiziya bu festivalı ətraflı işıqlandıraraq Azərbaycanın bu palitrasını bütün dünyaya nümayiş etdirir. Azsaylı xalqların adətənənəsini, mətbəxini, folklorunu əhatə edən filmlər və verilişlər ingilis dilinə tərcümə olunaraq Avropa tamaşaçılarına təqdim edilir...

**Qusar rayonunda Ləzgi, Qax rayonunda isə Gürcü Dövlət teatrları...**

Azərbaycan dövləti milli azlıqların hüquqlarının qorunması üzrə ardıcıl siyasəti davam etdirir. Ekspertlərin bildirdiyinə görə, milli azlıqlar öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda Azərbaycanda onlarla milli mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onların arasında "Birlik" cəmiyyəti, rus icması, slavyan mədəniyyət mərkəzi, Azərbaycan-İsrail icması, Ukrayna cəmiyyəti, "Ronai" kürd mədəni mərkəzi, "Samur" ləzgi milli mərkəzi, Azərbaycan-slavyan mədəniyyət mərkəzi, tat mədəniyyət mərkəzi, Azərbaycan-tatar cəmiyyəti, "Turqan-tel" tatar mədəniyyət cəmiyyəti, 14 "Yaşlıq" tatar mədəniyyət mərkəzi, "Krım" Krım tatarları cəmiyyəti, gürcü cəmiyyəti, Azərbaycan gürcülərinin humanitar cəmiyyəti, ingiloy icması, çeçen mədəniyyət mərkəzi, Ahıska türklərinin "Vətən" cəmiyyəti, Ahıska türk qadınlarının "Sona" cəmiyyəti, talış mədəniyyət mərkəzi, avar cəmiyyəti, dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, gürcü-yəhudi icması, yəhudilərin qadın humanitar assosiasiyası, "Karelhaus" alman mədəniyyət icması, "Polonia" polyak mədəniyyət mərkəzi, "Mada" Beynəlxalq talış assosiasiyası, "Avesta" talış assosiasiyası, "Orain" udi mədəniyyət mərkəzi, "Buduq" mədəniyyət mərkəzi, saxur mədəniyyət mərkəzi də vardır. Milli azlıqların sıx yerləşdiyi ərazilərdə həvəskar cəmiyyətlər, milli və dövlət teatrları, həvəskar assosiasiyalar və maraq qrupları fəaliyyət göstərir.



Məsələn, Qusar rayonunda ləzgi, Qax rayonunda isə Gürcü Dövlət teatrları, Astara və Lənkəran rayonlarında talış folklor qrupları fəaliyyət göstərir.

Bu teatrlar, eləcə də özfəaliyyət dərnəkləri respublikamızın ayrı-ayrı yerlərində çıxış edirlər və maraqlı tədbirlərin, proqramların ərsəyə gəlməsində birbaşa iştirak edirlər.

**...Kütləvi mədəni-maarif tədbirlərinin, proqramlarının hazırlanması üçün...**

Məlumatlara görə, kitabxanalarda "Azərbaycanda yaşayan azsaylı xalqların adət-ənənələri", "Talışların adət-ənənələri", "Ləzgilərin folkloru" və s. mövzularda mövzu gecəsi keçirmək istqamətində də tədbirlər həyata keçirir.

Ümumiyyətlə, kitabxanalar kütləvi mədəni-maarif tədbirlərinin, proqramlarının hazırlanması üçün ən əlverişli məkanlardan biridir.

Ekspertlər deyirlər ki, kitabxanalarda, yaxud başqa məkanlarda təşkil edilən belə gecələri mövzuya uyğun olaraq hər bir azsaylı xalqın mədəniyyət mərkəzləri, cəmiyyətləri, icmaları və s. ilə birlikdə təşkil etmək daha maraqlı olar. Tədbir, adətən kiçik məruzə və mühazirə ilə başlayır və gecədə iştirak edən fəal oxucuların çıxışları ilə başa çatır. Tədbir keçirilən bina gecənin əsas mövzusunu əks etdirən xüsusi şüarlar, plakatlar, fotolarla bəzədilir. Bundan başqa gecələr üçün sərgilər, kitab vitrinləri mövzuya uyğun ədəbiyyatın siyahısı hazırlanır. Azərbaycan milli müxtəlifliyi, rəngarəng mədəniyyəti ilə maraqlı və gözəldir. Hər bir xalqın yaratdığı mədəniyyət onun irsidir, bunlar hamısı isə bütövlükdə Azərbaycanın irsidir və əlaqədar qurumlar, TV-lər bu irsi yaşadanları təbliğ etməli, tanıtmalı və onlar barədə mədəni maarif proqramları hazırlamalıdır...

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**